# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 407** **Bakı şəhəri, 23 dekabr 2021-ci il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Məhkumların yemək və maddi-məişət normalarının təsdiq edilməsi barədə" 2001-ci il 25 sentyabr tarixli 154 nömrəli, "İstehsalat qəzası və yaxud peşə xəstəliyi nəticəsində sağlamlığı pozulmuş işçiyə və ya bu səbəbdən həlak olmuş işçinin ailə üzvlərinə və himayəsində olan digər şəxslərə ödənclərin verilməsi qaydalarının, şərtlərinin və məbləğinin təsdiq edilməsi haqqında" 2003-cü il 9 yanvar tarixli 3 nömrəli və "Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektinin əməkdaşının və onun ailə üzvlərinin yeni xidmət yerinə köçməsi və əmlakının daşınması Qaydası"nın təsdiq edilməsi haqqında" 2004-cü il 9 dekabr tarixli 192 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə***

"Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 22 iyun tarixli 346-VIQD nömrəli Qanununun tətbiqi və "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının 2018-ci il 31 may tarixli 1153-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 iyul tarixli 213 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 16 avqust tarixli 1424 nömrəli Fərmanının 3.1.2-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Məhkumların yemək və maddi-məişət normalarının təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 25 sentyabr tarixli 154 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 9, maddə 634; 2006, № 5, maddə 460; 2008, № 2, maddə 130; 2011, № 10, maddə 973; 2013, № 10, maddə 1210; 2018, № 4, maddə 804; 2019, № 3, maddə 513; 2020, № 12 (V kitab), maddə 1618; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 5 noyabr tarixli 342 nömrəli Qərarı) aşağıdakı dəyişikliklər edilsin:

1.1. həmin Qərarla təsdiq edilmiş 1 nömrəli əlavə – "Cəzaçəkmə müəssisələrində saxlanılan məhkumların gündəlik ərzaq normaları"nın "Qeyd" hissəsinin 2-ci bəndində "birinci və ikinci dərəcə əlilliyi olan, sağlamlıq imkanları məhdud 18 yaşınadək" sözləri "orqanizminin funksiyalarının 61-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş, 18 yaşınadək əlilliyi müəyyən edilmiş" sözləri ilə əvəz edilsin;

1.2. həmin Qərarla təsdiq edilmiş 5 nömrəli əlavə – "Müalicə müəssisələrində müalicə olunan məhkumların gündəlik ərzaq normaları"nın cədvəlinin ikinci sütununun adında "I və II dərəcə əlilliyi olan" sözləri "orqanizminin funksiyalarının 61-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş" sözləri ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 9 yanvar tarixli 3 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 1, maddə 66; 2004, № 8, maddə 657; 2008, № 2, maddə 130, № 9, maddə 855; 2009, № 10, maddə 857; 2010, № 3, maddə 262; 2017, № 5, maddə 1001, № 10, maddə 1915; 2018, № 5, maddə 1136, № 7 (II kitab), maddə 1665; 2019, № 3, maddə 516) ilə təsdiq edilmiş "İstehsalat qəzası və yaxud peşə xəstəliyi nəticəsində sağlamlığı pozulmuş işçiyə və ya bu səbəbdən həlak olmuş işçinin ailə üzvlərinə və himayəsində olan digər şəxslərə ödənclərin verilməsi qaydaları, şərtləri və məbləği"nin 1.5-ci bəndində "əlillik dərəcəsini" sözləri "orqanizmin funksiyalarının pozulması faizini" sözləri ilə əvəz edilsin.

**3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 9 dekabr tarixli 192 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 4, maddə 447; 2016, № 9, maddə 1585; 2019, № 3, maddə 516) ilə təsdiq edilmiş "Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektinin əməkdaşının və onun ailə üzvlərinin yeni xidmət yerinə köçməsi və əmlakının daşınması Qaydası"nın 11.3-cü bəndində "I və II dərəcə" sözləri "orqanizminin funksiyalarının 61-100 faiz pozulmasına görə" sözləri ilə əvəz edilsin.

**4.** Bu Qərar 2022-ci il iyulun 1-dən qüvvəyə minir.

***Əli ƏSƏDOV***
***Azərbaycan Respublikasının Baş naziri***

Xalq qəzeti.- 2021.- 26 dekabr.- S.6.